***Azərbaycan İkinci Qarabağ müharibəsində Ermənistan üzərində tarixi qələbə qazandıqdan sonra Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat imzalandı. Bəyanat təkcə regiondakı 30 illik müharibəyə son qoymadı, həm də regiondakı ölkələr üçün real əməkdaşlıq imkanları yaratmış oldu. Bəyanatda Cənubi Qafqazda nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutan müddəalar da yer alıb. Bu, sənədin 9-cu maddəsində nəzərdə tutulur. Həmin maddədə qeyd edilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa olunmalıdır. Elə həmin maddəyə əsasən, Ermənistan Azərbaycanın qərb bölgəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Zəngəzur dəhlizi vasitəsilə nəqliyyat əlaqəsinə zəmanət verib.***

# Zəngəzur dəhlizinin açılması bütün region ölkələrinin marağına uyğundur

Regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası məsələsi keçən il yanvarın 11-də Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında keçirilmiş üçtərəfli görüşdə də ayrıca müzakirə mövzusu olub. Bu işlərin görülməsi üçün artıq Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli işçi qrup yaradılıb. İndiyədək aparılmış müzakirələr nəticəsində dəmir və avtomobil yollarının bərpası qərara alınıb.

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Zəngəzur dəhlizinin bərpası ilə bağlı ideyanın irəli sürülməsi əməkdaşlıq və nəqliyyat əlaqələrinin yaradılması baxımından son dərəcə mühümdür. Yaranacaq əməkdaşlıq Ermənistanın özü də daxil olmaqla regiondakı bütün ölkələrin maraqlarına xidmət edir. Azərbaycan bu dəhlizin yaradılması və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı öhdəliklərinə sadiq olduğunu dəfələrlə bəyan edib.

Azərbaycan Prezidenti İlham Əliyev keçirdiyi mətbuat konfranslarında dönə-dönə bəyan edib ki, Ölkəmiz regionda sülhün və əməkdaşlığın bərqərar olmasında maraqlıdır: "…Biz onu müzakirə edirik ki, bölgədə davamlı, dayanıqlı sülh və təhlükəsizlik olsun. Bunun yeganə yolu isə əməkdaşlıqdır. Bizim məqsədimiz artıq üçtərəfli qaydada – Ermənistan və Rusiya ilə birlikdə kommunikasiyaların bərpası, Zəngəzur dəhlizinin yaradılması və nəqliyyat baxımından bütün maneələri aradan qaldırmaqdır".

Təbii ki, Zəngəzur dəhlizinin açılması region ölkələri arasında ticarət və iqtisadi əlaqələrə müsbət təsir göstərəcək. Bu, bir tərəfdən, Türkiyə ilə Azərbaycan arasında quru yolu ilə birbaşa əlaqə yaratmağa imkan verəcək. Digər tərəfdən, Türkiyə üçün Mərkəzi Asiyaya qapı açılacaq və digər türk dövlətləri ilə iqtisadi əlaqələri gücləndirmək imkanı yaranacaq. Bundan əlavə, hazırda Türkiyə Qars-Naxçıvan dəmir yolu layihəsinin reallaşması üzərində işləyir ki, növbəti mərhələdə bu dəmir yolunun Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın qərb bölgələri ilə birləşdirilməsi nəzərdə tutulur. Bu da Bakı ilə Ankara arasında ikitərəfli ticarət əlaqələrinin inkişafına yeni təkan verəcək.

Zəngəzur dəhlizi Rusiya üçün də xüsusi önəmə malikdir. Rusiya bu dəhlizdən Cənubi Qafqaz və qonşu ölkələrə yük daşımalarında əsas marşrut kimi istifadə edə biləcək. Bu dəhliz vasitəsilə Rusiya qatarları Azərbaycan ərazisindən keçməklə Ermənistan, Türkiyə, İran və Cənubi Asiya ölkələrinə gedə biləcək. Beləliklə, Zəngəzur dəhlizi həm Türkiyə ilə Rusiya arasında ticarət əlaqələrinə müsbət təsir göstərəcək, həm də Moskvanın Türkiyə vasitəsilə Yaxın Şərqdəki bazarlara çıxışı üçün alternativ marşrut olacaq. Bundan əlavə, dəhliz Rusiyanın forpostu hesab olunan Ermənistana quru yolla çıxış əldə etməsi deməkdir. Çünki Rusiyanın Gürcüstanla münasibətlərində ciddi problemlər olduğundan Ermənistana yük daşımalarında quru yoldan istifadə etmək mümkün deyil. Yəni dəhlizin fəaliyyətə başlamasından sonra Moskva və Yerevan arasında iqtisadi əlaqələr quru yolla daha da genişləcək. Bu da Ermənistan üçün böyük nəfəslik rolunu oynayacaq.

Zəngəzur dəhlizi Ermənistan üçün də böyük perspektivlər açacaq. Belə ki, Moskva və Yerevan arasında təkcə quru yolla nəqliyyat əlaqələri yaranmış olmayacaq, həm də Ermənistanın Avrasiya İqtisadi İttifaqına çıxışı təmin ediləcək. Hazırda Ermənistanın bu təşkilatdakı əsas ticarət tərəfdaşları ilə quru yolla əlaqəsi yox səviyyəsindədir. Bu isə onun iqtisadi təhlükəsizliyinə və xarici iqtisadi əlaqələrinə mənfi təsir göstərir.

Ermənistan, eyni zamanda Zəngəzur dəhlizi vasitəsilə əsas ticarət tərəfdaşlarından olan İranla dəmir yolu əlaqəsi yaradacaq. Bu ölkə uzun illərdir ki, İranla dəmir yolu əlaqəsi yaratmağa çalışsa da, maliyyə problemi üzündən bu niyyətini reallaşdıra bilmir. Ona görə də dəfələrlə bəyan edilib ki, Ermənistan iqtisadi blokadadan çıxmaq, iqtisadi inkişafa nail olmaq istəyirsə, yeganə yol regional əməkdaşlığa qoşulmaq,

Zəngəzur dəhlizinin açılmasını təmin etməkdir. Məhz bu əməkdaşlığın olmaması, Ermənistanın qonşulara qarşı təcavüz siyasəti yürütməsinin nəticəsidir ki, bu ölkədə işsizlik, mühacirət və yoxsulluq dözülməz həddə çatıb. Məhz bu təcavüzkar siyasətin nəticəsidir ki, Ermənistan regionda həyata keçirilmiş bütün layihələrdən kənarda qalıb.

Beləliklə, Zəngəzur dəhlizinin işə salınması region ölkələri qarşısında yeni imkanlar açacaq, nəqliyyat şəbəkəsi genişlənəcək, ölkələr arasında qarşılıqlı iqtisadi əlaqələr stimullaşacaq.

Azərbaycan regional əməkdaşlığa hazır olduğunu, bunun üçün hətta "3+3" formatında əməkdaşlıq təklif etdiyini bəyan edib. Bu təklif məhz region ölkələri və bütün qonşularla əməkdaşlığa yönəlib. Məlum olduğu kimi, Gürcüstan da "3+3" formatına dəvət olunub, amma rəsmi Tbilisi hələ ki, bu təşəbbüsə qoşulmayıb.

Təbii ki, bölgədə sülhün, sabitliyin yaranmasını istəyən hər bir ölkə bu prosesə dəstək verməli, Zəngəzur dəhlizinin açılmasına çalışmalıdır. Azərbaycanın bu istiqamətdəki səyləri beynəlxalq aləmdə də geniş müdafiə olunur. Bir sıra Qərb dövlətləri,




eləcə də ABŞ, beynəlxalq təşkilatlar Ermənistanı Azərbaycan və Türkiyənin bu təşəbbüsünə qoşularaq regional əməkdaşlığa dəvət edib.

Bu yaxınlarda Azərbaycanda səfərdə olan İranın yol və şəhərsalma naziri, İran–Azərbaycan Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasemi də Azərbaycanın təşəbbüsünə dəstəyini ifadə edib. Onun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevlə birlikdə işğaldan azad edilmiş ərazilərə səfər edib, həmin ərazilərdə həyata keçirilən nəqliyyat və digər infrastruktur layihələri ilə tanış olub. Maraqlıdır ki, İran nümayəndələri Tehrandan birbaşa reyslə Füzuli Beynəlxalq Hava Limanına eniblər. Onlara hava limanının cəmi 9 ay ərzində inşa olunduğu barədə məlumat verilib. Sonra iranlı qonaqlar Azərbaycanın Ermənistanla həmsərhəd Zəngilan rayonunda beynəlxalq nəqliyyat marşrutunun bir hissəsi olan Horadiz – Ağbənd dəmir yolu layihəsi üzrə görülən işlərlə tanış olublar. Tanışlıq zamanı layihənin əhəmiyyəti haqqında danışılıb, İranın bu layihədə iştirakının vacibliyi vurğulanıb. Qonaqlar Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə də tanış olublar.

Daha sonra Zəngəzur dəhlizində inşa olunan avtomobil tunellərinə və Cocuq Mərcanlı qəsəbəsində dəmir yolu layihəsinə baxış keçirilib, avtomobil və dəmir yolu layihələri ilə bağlı təqdimatlar dinlənilib. İşğaldan azad edilmiş ərazilərə səfər boyu qonaqlara ermənilər tərəfindən dağıdılmış şəhər və kəndlərimiz barədə məlumat verilib. Səfərin sonunda nümayəndə heyəti Füzuli şəhəri ilə tanış olaraq bütün yaşayış və infrastruktur obyektlərinin, o cümlədən məscidlərin tamamilə dağıdıldığının canlı şahidi olublar.

Bəli, bu gün Ermənistan üzərində tarixi Qələbə nəticəsində regionda yeni reallıqlar yaranıb. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycanın iqtisadi rayonlarının bölgüsünə yenidən baxılaraq, işğaldan azad edilmiş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. Bu rayonlar, təbii ki, böyük iqtisadi potensiala malikdir. Həmin iqtisadi rayonların imkanlarından səmərəli istifadə olunması və bu potensialın ölkənin ümumi potensialına inteqrasiyası Azərbaycanın bundan sonrakı dövrdə daha sürətli inkişafını təmin edəcək. İndi həmin ərazilərdə bərpa prosesi ən müasir tələblərə cavab verən səviyyədə müasir texnologiyaların tətbiqi ilə həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında qısa müddət ərzində nəhəng infrastruktur layihələri artıq reallaşdırılıb. Zəngəzur dəhlizinin açılması istiqamətdə işlər də davam etməkdədir.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***